BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN TƏHLİLİ MƏRKƏZİ

TƏHLİL

# NATO-nun Ankara sammiti : Alyansın “hədəflərdən icraya” keçid mərhələsi

Mətin Məmmədli

Mirzə İbrahimov 8, Bakı, AZ1005, Azərbaycan

(+994 12) 596-82-39, (+994 12) 596-82-41

E-mail: www.aircenter.az, info@aircenter.az

İYUL 2026

## NATO-nun Ankara sammiti : Alyansın “hədəflərdən icraya” keçid mərhələsi

Ankarada keçirilən son NATO sammiti Alyans üçün olduqca mürəkkəb və ziddiyyətli bir dövrdə baş tutdu. Beynəlxalq sistem eyni vaxtda bir neçə böhran xətti üzrə təzyiq altındadır: Rusiya-Ukrayna müharibəsi Avropa təhlükəsizlik arxitekturasını sınağa çəkir; Yaxın Şərqdə İran, Fars körfəzi, Qəzza və dəniz kommunikasiyalarının təhlükəsizliyi ilə bağlı risklər artmaqdadır; Alyans daxilində isə son illərdə müdafiə xərcləri, Avropanın məsuliyyət payı, ABŞ-ın gözləntiləri və müdafiə sənayesi üzrə məhdudiyyətlər ətrafında ciddi fikir ayrılıqları müşahidə edilir. Bu kontekstdə Ankara sammiti təkcə növbəti diplomatik toplantı deyil, NATO-nun daxili etimadının bərpası və kollektiv iradəsinin yenidən təsdiqi baxımından Alyans tərəfindən mühüm siyasi mərhələ kimi qiymətləndirilir[1].

Sammitin əsas nəticələri Alyansın birliyini qorumaq (ən azı bu görüntünü yaratmaq), öhdəlikləri konkretləşdirmək və 2025-ci il Haaqa sammitində qəbul edilmiş strateji hədəfləri praktik icra mexanizmlərinə çevirməkdən ibarət oldu. Rəsmi NATO təqdimatında Ankara sammitinin məqsədi Haaqadan sonra əldə olunmuş irəliləyişi nəzərdən keçirmək və NATO-nun əsas məqsədləri üzrə icranı davam etdirmək üçün yol xəritəsi müəyyənləşdirmək kimi göstərilirdi[2]. Baş katib Mark Ruttenin “NATO delivers” - yəni “NATO nəticə verir” tezisi də bu məntiqi ifadə edirdi: Alyans artıq yalnız prioritetləri elan edən platforma deyil, həm də maliyyə, sənaye və hərbi imkanları səfərbər edən icra mexanizmi kimi çıxış etməlidir [3].

Bu kontekstdə Ankara bəyannaməsi etimadın bərpasına cəhd sənədi kimi də oxunmalıdır. Çünki son illərdə NATO daxilində ən böyük sual ABŞ-ın təhlükəsizlik zəmanətlərinin davamlılığı və Avropa müttəfiqlərinin öz müdafiəsinə nə dərəcədə ciddi yanaşması ilə bağlı idi. Prezident Donald Trampın Avropa müttəfiqlərindən daha çox maliyyə yükü götürmək tələbi bu sualı daha da kəskinləşdirmişdi. Ankara sammiti bu gərginliyi tam aradan qaldırmasa da, Avropa müttəfiqləri və Kanadanın daha böyük məsuliyyət götürdüyünü göstərməklə transatlantik münasibətlərdə kompromis xətti yaratdı[4].

---

1 https://www.nato.int/en/about-us/official-texts-and-resources/official-texts/2026/07/08/the-ankara-summit-declaration
2 https://www.nato.int/en/news-and-events/events/2026/07/overview---2026-nato-summit-in-ankara-
3 https://www.nato.int/en/news-and-events/articles/news/2026/07/08/secretary-general-on-the-ankara-summit-nato-delivers
4 https://www.atlanticcouncil.org/content-series/fastthinking/was-the-nato-summit-a-success/

## Haaqa 2025 və Ankara 2026: sənədlərin funksional fərqi

Ankara bəyannaməsini doğru qiymətləndirmək üçün onu 2025-ci ilin Haaqa sammiti ilə müqayisəli təhlil etmək vacibdir. Haaqa bəyannaməsi daha çox NATO-nun təhlükəsizlik və müdafiə prioritetlərini müəyyənləşdirən çərçivə sənədi idi. Orada müttəfiqlər Rusiyanın uzunmüddətli təhlükə olduğunu, terrorizmin davamlı təhdid kimi qaldığını və Alyansın 2035-ci ilə qədər ÜDM-in 5 faizi həcmində müdafiə və təhlükəsizlik xərclərinə keçməli olduğunu elan etdilər[5]. Bu, strateji prioritetin qoyuluşu idi: NATO daha çox xərcləməli, daha sürətli silahlanmalı, daha dayanıqlı və texnoloji baxımdan daha rəqabətqabiliyyətli olmalı idi.

Ankara bəyannaməsinin fərqi isə məhz icra xarakterindədir. Əgər Haaqa "nə edilməlidir?" sualına cavab verirdisə, Ankara "bu qərarlar necə yerinə yetiriləcək?" sualına cavab verdi. Ankara sammiti müdafiə investisiyalarının artmasını, yeni qabiliyyətlərin formalaşdırılmasını, müdafiə sənaye istehsalının genişlənməsini və Ukraynaya dəstəyin konkret məbləğlə ifadə olunmasını ön plana çıxardı[6]. Bu mənada Ankara sənədi Haaqa qərarlarının davamı olmaqla yanaşı, onların siyasi bəyanatdan institusional icraya keçid mərhələsini göstərdi.

Haaqa sammitinin əsas hadisəsi 5 faizlik müdafiə investisiyası hədəfi idisə, Ankara sammitinin əsas hadisələrindən biri həmin hədəfin real nəticələrə çevrilməsi idi. NATO-nun rəsmi məlumatına görə, 2025-ci ildə Avropa müttəfiqləri və Kanada əsas müdafiə investisiyalarını nominal ifadədə 139 milyard ABŞ dolları artırmışdı[7]; Ankara gündəliyinin məntiqi də bu artımın sadəcə büdcə rəqəmi kimi qalmaması, konkret qabiliyyətlərə, satınalmalara, sənaye istehsalına və Ukraynaya dayanıqlı yardıma çevrilməsi idi.

## Ankara bəyannaməsinin əsas məqamları

### 1. **NATO daxilində birliyin qorunması və 5-ci maddəyə bağlılıq**

Ankara bəyannaməsinin birinci siyasi mesajı Alyans daxilində birliyin qorunması və Vaşinqton müqaviləsinin 5-ci maddəsinə bağlılığın yenidən təsdiqidir. NATO sənədi kollektiv müdafiə prinsipinin - bir müttəfiqə hücumun bütün Alyansa hücum sayılması prinsipinin - Alyansın siyasi varlığının əsası olduğunu bir daha vurğulayır. Bu məqam xüsusilə ona görə xüsusi əhəmiyyət kəsb edir ki, NATO-nun hərbi gücü yalnız silah və büdcə göstəricilərindən ibarət deyil; onun çəkindiricilik effekti üzvlərin bir-birinə

[5] https://www.nato.int/en/about-us/official-texts-and-resources/official-texts/2025/06/25/the-hague-summit-declaration
[6] https://www.nato.int/en/about-us/official-texts-and-resources/official-texts/2026/07/08/the-ankara-summit-declaration
[7] https://www.nato.int/en/what-we-do/introduction-to-nato/defence-expenditures-and-natos-5-commitment

inanmasından, mümkün hücum halında birgə hərəkət edəcəklərinə dair siyasi etimaddan asılıdır.

Son illərdə ABŞ və Avropa dövlətləri arasında yük bölgüsü ilə bağlı mübahisələr, bəzi üzvlərin müdafiə xərclərinin aşağı olması, Ukrayna müharibəsi və Yaxın Şərq böhranlarına münasibətdə fərqli yanaşmalar bu etimadı zəiflədən amillər idi. Ankara bəyannaməsində 5-ci maddəyə bağlılığın yenidən vurğulanması bu səbəbdən formal ifadə deyil, siyasi siqnaldır: Alyans daxili mübahisələrə baxmayaraq, kollektiv müdafiə prinsipini müzakirə predmeti etməyəcək. Baş katib M.Rutte də sammitdən sonra bu birliyi sülh, təhlükəsizlik və rifahın əsası kimi təqdim etdi.

2. **Avropanın daha çox maliyyə və təhlükəsizlik yükü götürməsi**

Ankara sammitinin ən mühüm nəticələrindən biri Avropa müttəfiqləri və Kanadanın təhlükəsizlik yükünü daha çox üzərinə götürməsinin siyasi təsdiqi oldu. Haaqa sammitində qəbul edilmiş 5 faizlik hədəf iki hissədən ibarət idi: ÜDM-in ən azı 3,5 faizi əsas müdafiə tələblərinə, 1,5 faizə qədər hissəsi isə kritik infrastruktur, kibertəhlükəsizlik, mülki dayanıqlıq, innovasiya və müdafiə sənayesinə yönəldilməli idi. Ankara sammiti bu qərarı milli planlar, satınalmalar və sənaye istehsalı gündəliyi ilə əlaqələndirdi.

Bu, Donald Tramp administrasiyasının Avropadan daha çox maliyyə məsuliyyəti tələb etməsi fonunda xüsusi əhəmiyyət daşıyır. ABŞ uzun müddətdir NATO daxilində yük bölgüsünün daha ədalətli olmasını tələb edir. Ankara sammiti həmin tələbin qismən təmin edildiyini göstərdi: Avropa müttəfiqləri və Kanada həm müdafiə xərclərini artırır, həm Ukrayna yardımının əsas hissəsini maliyyələşdirir, həm də müdafiə sənaye bazasının genişləndirilməsində daha fəal rol götürür [8]. Bu, transatlantik münasibətlərdə gərginliyi azaltmağa xidmət edən kompromis mexanizmidir: ABŞ Alyansda strateji liderliyini saxlayır, Avropa isə təhlükəsizliyin praktiki xərclərinin daha böyük hissəsini daşımağa başlayır.

3. **Ukraynaya dəstəyin davamlı və konkret xarakter alması**

Ankara bəyannaməsinin Ukrayna ilə bağlı hissəsi sənədin ən vacib məqamlarından biridir. Müttəfiqlər 2026-cı il üçün Ukraynaya hərbi texnika, yardım və təlim üzrə 70 milyard avro həcmində dəstək öhdəliyi götürdülər və 2027-ci ildə də ən azı eyni səviyyənin saxlanılacağını bildirdilər. Bu, Ukrayna üçün üç amil kontekstində xüsusi əhəmiyyət kəsb edir. Birincisi, yardımın həcmi artıq siyasi bəyanat səviyyəsində deyil, konkret maliyyə öhdəliyi kimi ifadə olunur. İkincisi, yardımın 2028-ci ilə qədər davamlılığı Kiyevə orta müddətli müdafiə planlaması

[8] https://www.nato.int/en/about-us/official-texts-and-resources/official-texts/2026/07/08/the-ankara-summit-declaration

imkanı verir. Üçüncüsü, Avropa və Kanadanın əsas maliyyələşdirici rolunun vurğulanması ABŞ-dakı siyasi dəyişikliklərdən asılılığı qismən azaldır.

Eyni zamanda, sammitin gündəliyi göstərdi ki, Ukrayna mövzusu əvvəlki sammitlərdə olduğu kimi yeganə dominant mövzu olmasa da, yenə də əsas mövzulardan biri olaraq qaldı. Ankara sammitinin gündəliyində müdafiə investisiyası, sənaye istehsalı və Alyansın daxili yük bölgüsü daha ön plana çıxdı. Lakin bu prioritetlər Ukrayna mövzusundan ayrılmır; əksinə, Ukraynaya dəstəyin davamlılığı həmin investisiya və sənaye gündəliyinin əsas motivlərindən biridir. NATO sənədində Ukraynanın təhlükəsizliyinin transatlantik təhlükəsizliyə töhfə verdiyi fikri də məhz bu əlaqəni ifadə edir.

4. **Rusiyanın uzunmüddətli təhlükə kimi qəbul edilməsi**

Ankara sammiti Rusiyanın NATO üçün uzunmüddətli təhlükə kimi qəbul edilməsi xəttini davam etdirdi. Haaqa bəyannaməsində Rusiya Avro-Atlantik təhlükəsizlik üçün uzunmüddətli təhdid kimi göstərilmişdi[9]. Ankara sənədi bu yanaşmanı praktiki nəticələrlə tamamladı: müdafiə investisiyalarının artırılması, şərq cinahına logistika və yanacaq infrastrukturunun gücləndirilməsi, dərin zərbə qabiliyyətləri, inteqrasiya olunmuş hava və raketdən müdafiə, pilotsuz sistemlər və kəşfiyyat imkanlarının inkişafı.

Bu yanaşmanın mahiyyəti ondan ibarətdir ki, NATO artıq Rusiya təhlükəsini müvəqqəti böhran kimi deyil, uzunmüddətli struktur təhlükə kimi qiymətləndirir. Buna görə də cavab yalnız Ukraynaya yardım paketlərindən ibarət ola bilməz; Alyansın öz hərbi-sənaye bazası, logistika şəbəkələri, ehtiyatları və əməliyyat hazırlığı yenidən qurulmalıdır. Moskvanın Ankara qərarlarına sərt reaksiyası da bu qərarların sadəcə diplomatik mətn deyil, Avropada hərbi balansı dəyişdirə biləcək proses kimi qəbul edildiyini göstərdi [10].

5. **Müdafiə sənayesi və yeni satınalmalar**

Ankara sammitində müdafiə sənayesi ayrıca strateji gündəm kimi ön plana çıxdı. NATO-nun Müdafiə Sənayesi Forumunda 50 milyard avrodan çox yeni satınalma razılaşmaları elan edildi; həmçinin pilotsuz sistemlər, hava-kosmik müşahidə, inteqrasiya olunmuş hava və raketdən müdafiə, erkən xəbərdarlıq və nəqliyyat-tanker imkanları üzrə yeni təşəbbüslər təqdim olundu[11]. Bu, Alyans üçün yeni reallığın göstəricisidir: uzunmüddətli təhlükəsizlik yalnız hazır silah anbarlarına deyil, davamlı

---

9 https://www.nato.int/en/about-us/official-texts-and-resources/official-texts/2025/06/25/the-hague-summit-declaration

10 https://www.reuters.com/world/russia-denounces-nato-summit-decisions-aid-ukraine-defence-2026-07-08/

11 https://www.nato.int/en/news-and-events/events/2026/07/overview---2026-nato-summit-in-ankara-

istehsal gücünə, tədarük zəncirinin dayanıqlığına və müttəfiqlər arasında sənaye inteqrasiyasına bağlıdır.

Müdafiə sənayesinin gündəliyə gəlməsinin səbəbi aydındır. Rusiya-Ukrayna müharibəsi müasir müharibənin yüksək sursat sərfi, sürətli texnoloji adaptasiya və ucuz-kütləvi pilotsuz sistemlər mərhələsinə keçdiyini göstərdi. Bu şəraitdə NATO üçün təkcə bahalı platformalara sahib olmaq kifayət etmir; istehsalı sürətləndirmək, standartları uyğunlaşdırmaq, birgə satınalmaları artırmaq və müdafiə sektoruna kapital axınını genişləndirmək tələb olunur. Ankara sammitində “pul var, daha çoxu gəlir” mesajı ilə yanaşı, “daha çox, daha sürətli, birlikdə” çağırışı da bu zərurətin ifadəsi idi[12].

**İran məsələsi: məhdud, lakin ABŞ üçün əhəmiyyətli gündəm**

İran mövzusu Ankara sammitində Ukrayna qədər geniş yer tutmadı. Lakin bəyannamədə İranla bağlı üç əsas mesaj verildi: nüvə silahının yayılmasına qarşı mövqe, regional sabitliyin qorunması və Hörmüz boğazında naviqasiya azadlığının təmin edilməsi[13]. Bu formul NATO-nun İranı birbaşa kollektiv müdafiə gündəminin mərkəzinə gətirmədiyini, lakin Yaxın Şərqdəki böhranların Avro-Atlantik təhlükəsizliyə təsirini qəbul etdiyini göstərir.

Belə bir mövqe ABŞ üçün xüsusi əhəmiyyət daşıyır. Vaşinqton İranın nüvə proqramını, raket imkanlarını və Fars körfəzi dəniz yollarına təsir potensialını qlobal təhlükəsizlik məsələsi kimi təqdim edir. NATO-nun Ankara bəyannaməsində İranın nüvə silahına malik olmamalı olduğu və Hörmüz boğazında naviqasiya azadlığının qorunmalı olduğu barədə qeyd ABŞ-ın bu xəttinə siyasi dəstək verir. Eyni zamanda, NATO məsələni hərbi eskalasiya dili ilə deyil, sabitlik və dəniz nəqliyyatının təhlükəsizliyi çərçivəsində təqdim etməklə Avropa müttəfiqlərinin daha ehtiyatlı yanaşmasını da nəzərə alır.

Bütün bunlarla bərabər onu da qeyd edək ki, Ankara Sammiti birlik nümayiş etdirməyi bacarsa da, bu, Alyans daxilində bütün fikir ayrılıqlarının aradan qalxdığı anlamına gəlmir. Əksinə, sammit göstərdi ki:

- ABŞ ilə bəzi Avropa müttəfiqləri arasında təhlükəsizlik yükünün bölüşdürülməsi məsələsi hələ də aktual olaraq qalır;
- müdafiə xərclərinin ÜDM-in 5 faizinə çatdırılması ilə bağlı siyasi razılıq əldə edilsə də, bu öhdəliyin icra tempi və maliyyələşdirilməsi üzərində müxtəlif yanaşmalar mövcuddur;

12 https://www.nato.int/en/news-and-events/events/event-programmes/2026/07/nato-summit-2026

13 https://www.nato.int/en/news-and-events/events/2026/07/overview---2026-nato-summit-in-ankara-

- Ukraynaya hərbi dəstəyin miqyası və uzunmüddətli strategiyası üzrə fərqli mövqelər qalmaqdadır;
- İran və Yaxın Şərq məsələsində ABŞ ilə bəzi Avropa dövlətlərinin prioritetləri tam üst-üstə düşmür;
- NATO-nun gələcəkdə Çin və Hind-Sakit okean istiqamətində rolunun genişləndirilməsi də bütün üzvlər tərəfindən eyni səviyyədə dəstəklənmir.

Bu kontekstdə Ankara Bəyannaməsində 5-ci maddəyə xüsusi vurğu təsadüfi deyil. Sənəd siyasi parçalanma görüntüsünü aradan qaldırmaq və kollektiv müdafiə prinsipinə dair etimadı möhkəmləndirmək məqsədi daşıyır. Sammit zamanı ABŞ Prezidenti Donald Trampın bəzi müttəfiqlərlə polemikası olsa da, yekunda kollektiv müdafiəyə dəstəyini bir daha bəyan etməsi Alyansın siyasi birliyi baxımından mühüm nəticə kimi qiymətləndirildi[14].

## Ankara sammitinin Türkiyə üçün əhəmiyyəti

Sammitin Ankarada keçirilməsi Türkiyə üçün həm diplomatik, həm də strateji baxımdan mühüm hadisə oldu. Bu, Türkiyənin NATO tarixində ikinci dəfə sammitə ev sahibliyi etməsi idi; əvvəlki belə sammit 2004-cü ildə İstanbulda keçirilmişdi. Ankara sammiti Türkiyənin Alyans daxilində sadəcə coğrafi cinah dövləti deyil, Qara dəniz, Yaxın Şərq və Cənubi Qafqaz istiqamətlərində strateji əlaqələndirici rol oynayan mərkəzi aktor olduğunu göstərdi.

Türkiyənin rolu üç istiqamətdə güclənir. Birincisi, Qara dəniz təhlükəsizliyi və Ukrayna müharibəsi kontekstində Ankara həm NATO müttəfiqi, həm də Moskva və Kiyevlə əlaqə kanallarını saxlayan aktor kimi xüsusi mövqeyə malikdir. İkincisi, Yaxın Şərqdə İran, Suriya, Qəzza və enerji-kommunikasiya xətləri ilə bağlı risklər Türkiyənin geosiyasi çəkisini artırır. Üçüncüsü, Cənubi Qafqazda post-müharibə düzəninin formalaşması, kommunikasiya xətləri və regional təhlükəsizlik arxitekturası NATO-nun Türkiyə üzərindən regiona baxışını daha da aktuallaşdırır.

Sammit həm də Türkiyənin müdafiə sənayesi məhsullarını təqdim etməsi baxımından vacib platforma oldu. Ankara son illərdə pilotsuz uçuş sistemləri, elektron müharibə, sursat, hava müdafiəsi və zirehli texnika sahəsində öz imkanlarını genişləndirib. Prezident Ərdoğanın çıxışında Türkiyənin müdafiə sənayesində “böyük

[14] https://www.reuters.com/business/aerospace-defense/natos-rutte-brushes-off-disputes-between-trump-allies-2026-07-08/

sıçrayış" etdiyini və istehsal-ixrac potensialına görə aparıcı ölkələr sırasına daxil olduğunu vurğulaması bu iddianın siyasi təqdimatı idi[15].

### Ərdoğanın çıxışı: Türkiyənin Alyans daxilində gündəmi

Prezident Rəcəb Tayyib Ərdoğanın sammitdəki çıxışı bir neçə əsas xətt üzərində quruldu. Birincisi, o, NATO daxilində müdafiə sənayesi üzrə məhdudiyyətlərin aradan qaldırılmasını tələb etdi. Ərdoğana görə, müttəfiqlər arasında müdafiə əməkdaşlığına, xüsusən müdafiə sənayesinə tətbiq olunan məhdudiyyətlər Alyansın birliyinə zərər verir və Avropa təhlükəsizliyində süni bölünmələr yaradır[16]. Bu, Türkiyənin uzun müddətdir gündəmdə saxladığı məsələdir: Ankara NATO üzvü olmasına baxmayaraq, bəzi Qərb ölkələrinin ixrac məhdudiyyətləri və proqramlardan kənarda saxlanılması siyasətini müttəfiqlik ruhuna uyğun hesab etmir.

İkincisi, Ərdoğan Avropanın daha çox məsuliyyət götürməsini dəstəkləsə də, bunun NATO birliyini və transatlantik əlaqələri zəiflətməməli olduğunu bildirdi. Bu mövqe Türkiyənin Avropa təhlükəsizliyi təşəbbüslərinə daxil olmaq istəyini əks etdirir: Ankara Avropanın müdafiə sütununun güclənməsini qəbul edir, lakin bu prosesin Avropa İttifaqı üzvü olmayan NATO müttəfiqlərini kənarda qoymasına qarşı çıxır.

Üçüncüsü, Ərdoğan Türkiyənin müdafiə xərclərini artırmaq niyyətini açıqladı: Ankara 2030-cu ildən əvvəl müdafiə xərclərini 3,5 faiz səviyyəsinə qaldırmaq üçün tədbirlər görüb və əlavə olaraq təhlükəsizlik-dayanıqlıq xərclərinə 1,5 faiz ayırdığını bildirib[17]. O, həmçinin "Steel Dome" hava və raketdən müdafiə layihəsinə əlavə 24 milyard dollar ayrıldığını elan etdi; bu, Türkiyənin NATO-nun kritik imkan boşluqlarından birini doldurmaq iddiası kimi təqdim olundu.

Dördüncüsü, Ərdoğan Yaxın Şərq və Ukrayna məsələlərinə toxundu. O, İsrail-Fələstin münaqişəsində iki dövlətli həllin davamlı sülh üçün əsas olduğunu, Qəzza və Livanda sakitliyin təmin edilməsinin vacibliyini vurğuladı. İran məsələsində gərginliyin həlli istiqamətində ABŞ prezidentinin mövqeyini dəstəklədiyini bildirdi və Hörmüz boğazında mina təmizləmə səylərinə töhfə verməyə hazır olduqlarını qeyd etdi. Ukrayna məsələsində isə Türkiyənin həm Kiyevi dəstəklədiyini, həm də Moskvanı sülhə təşviq etmək üçün kommunikasiya kanallarından istifadə etdiyini bildirdi.

---

[15] https://www.aa.com.tr/en/world/turkish-president-erdogan-calls-for-lifting-defense-cooperation-restrictions-among-nato-allies/3990665
[16] https://www.usnews.com/news/world/articles/2026-07-08/erdogan-urges-nato-allies-to-lift-defence-industry-restrictions-at-summit
[17] https://www.aa.com.tr/en/world/turkish-president-erdogan-calls-for-lifting-defense-cooperation-restrictions-among-nato-allies/3990665

## Nəticə

Ankara sammitinin ümumi siyasi nəticəsi belədir : NATO Haaqa sammitində elan etdiyi strateji prioritetləri icra mərhələsinə keçirməklə bağlı qərarlar qəbul edib. Ankara sammitində qəbul edilən Bəyannamə Alyans daxilində birliyin qorunmasını, 5-ci maddəyə bağlılığın yenilənməsini, Avropa və Kanadanın daha böyük maliyyə məsuliyyəti götürməsini, Ukraynaya dəstəyin konkret və davamlı xarakter almasını, Rusiyanın uzunmüddətli təhlükə kimi qəbul edilməsini və müdafiə sənayesinin strateji prioritetə çevrilməsini eyni çərçivədə birləşdirir.

Bu kontekstdə Ankara sammiti NATO üçün "strategiyadan icraya" keçid mərhələsidir. Sammit həmçinin göstərdi ki, Alyans daxilində fikir ayrılıqları qalır, lakin bu ayrılıqlar NATO-nun kollektiv müdafiə məntiqini dağıtmır. Əksinə, məhz böhranlar Alyansı daha çox maliyyə, daha çox istehsal, daha çox texnoloji adaptasiya və daha dayanıqlı siyasi birlik axtarışına məcbur edir. Türkiyə üçün isə sammit NATO daxilində rolunu gücləndirmək, müdafiə sənayesi imkanlarını nümayiş etdirmək və Qara dəniz-Yaxın Şərq-Cənubi Qafqaz xəttində strateji əhəmiyyətini təsdiqləmək baxımından xüsusi əhəmiyyət daşıdı.

Eyni zamanda, Ankara sammiti NATO-nun gələcək inkişaf trayektoriyası baxımından bir sıra mühüm tendensiyaları da üzə çıxardı. Birincisi, Alyansın təhlükəsizlik anlayışı artıq yalnız klassik hərbi çəkindirmə ilə məhdudlaşmır. Müdafiə sənayesinin gücləndirilməsi, kritik infrastrukturun qorunması, kibertəhlükəsizlik, innovasiya və dayanıqlı logistika sistemlərinin inkişafı NATO-nun kollektiv müdafiə konsepsiyasının ayrılmaz hissəsinə çevrilir. Bu yanaşma müasir münaqişələrin uzunmüddətli xarakter aldığını və dövlətlərin yalnız döyüş meydanında deyil, iqtisadi, texnoloji və sənaye potensialı baxımından da rəqabət apardığını göstərir. İkincisi, sammit transatlantik münasibətlərdə yeni məsuliyyət bölgüsünün formalaşdığını nümayiş etdirdi. ABŞ Alyansın əsas təhlükəsizlik təminatçısı olaraq qalmaqla yanaşı, Avropa müttəfiqlərinin daha böyük maliyyə və hərbi öhdəlik götürməsini strateji zərurət kimi qiymətləndirir. Avropa dövlətlərinin müdafiə büdcələrini artırması və müdafiə sənayesinə daha çox sərmayə yönəltməsi NATO daxilində yük bölgüsünün daha balanslı modelə keçidini sürətləndirə bilər. Bununla belə, bu prosesin uğuru ayrı-ayrı üzv dövlətlərin iqtisadi imkanlarından, daxili siyasi iradəsindən və uzunmüddətli öhdəliklərə sadiqliyindən asılı olacaq.

Üçüncüsü, Ankara sammiti göstərdi ki, Ukrayna müharibəsi NATO-nun strateji transformasiyasının əsas katalizatoru olaraq qalır. Ukraynaya davamlı dəstək yalnız Kiyevin müdafiə qabiliyyətinin qorunmasına deyil, həm də Alyansın çəkindiricilik siyasətinin etibarlılığına xidmət edir. Eyni zamanda, Rusiyanın uzunmüddətli təhlükə

kimi qiymətləndirilməsi NATO-nun Şərq cinahında hərbi mövcudluğunu və hazırlıq səviyyəsini gələcək illərdə də prioritet istiqamət kimi saxlayacağını göstərir.

Azərbaycan və Cənubi Qafqaz baxımından da Ankara sammitinin nəticələri diqqətəlayiqdir. Türkiyənin NATO daxilində artan siyasi çəkisi və regionun strateji əhəmiyyətinin vurğulanması Cənubi Qafqazın Avro-Atlantik təhlükəsizlik gündəmində dolayısı ilə daha mühüm yer tutacağını göstərir. Eyni zamanda, NATO-nun region ölkələri ilə tərəfdaşlıq formatlarının inkişaf etdirilməsi, enerji və nəqliyyat dəhlizlərinin təhlükəsizliyinə verilən önəmin artması Azərbaycanın da geostrateji əhəmiyyətini gücləndirən amillər sırasındadır.

Bütün bunlarla bərabər, Ankara sammiti NATO daxilində mövcud olan fikir ayrılıqlarının tam aradan qalxmadığını da nümayiş etdirdi. Alyans üzvləri arasında müdafiə xərclərinin ÜDM-in 5 faizi səviyyəsinə çatdırılmasının tempi və maliyyə mənbələri, Ukraynaya göstərilən hərbi dəstəyin uzunmüddətli strategiyası, ABŞ ilə Avropa müttəfiqləri arasında təhlükəsizlik yükünün bölüşdürülməsinin bəzi məqamları, ABŞ ilə bir sıra Avropa müttəfiqləri (İspaniya, Danimarka) arasında ziddiyyətli münasibətlər, İran və Yaxın Şərq siyasətinə yanaşmalar, eləcə də NATO-nun Çin və Hind-Sakit okean regionunda gələcək roluna dair fərqli mövqelər qalmaqdadır. Bu fikir ayrılıqları Alyansın strateji birliyini tam sarsıtmasa da, gələcək qərarların qəbulu və icrası zamanı konsensusun əldə edilməsini daha mürəkkəb prosesə çevirə bilər. Məhz buna görə Ankara sammitində kollektiv müdafiə prinsipinə və Vaşinqton Müqaviləsinin 5-ci maddəsinə xüsusi vurğu edilməklə, siyasi həmrəyliyin qorunmasının NATO-nun gələcək fəaliyyətinin əsas şərti olduğu bir daha təsdiqlənmişdir.

Yekun olaraq, Ankara sammiti NATO-nun yalnız cari təhlükəsizlik çağırışlarına reaksiyası deyil, həm də Alyansın gələcək onilliklər üçün institusional transformasiyasının istiqamətlərini müəyyənləşdirən mühüm siyasi platforma kimi qiymətləndirilə bilər. Sammit göstərdi ki, NATO qarşıdakı dövrdə daha çevik, texnoloji cəhətdən üstün, sənaye baxımından dayanıqlı və siyasi baxımdan koordinasiyalı təhlükəsizlik modeli qurmağa çalışacaq. Bu isə Alyansın qlobal təhlükəsizlik sistemində rolunu qorumaqla yanaşı, Avro-Atlantik məkanında sabitliyin təmin edilməsində əsas aktor statusunu uzunmüddətli perspektivdə də saxlamasına xidmət edəcək.

**Müəllif: Mətin Məmmədli, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin şöbə müdiri**